# BİRİNCİ TÜRKOLOJİ QURULTAY HAQQINDA FİKİRLƏR

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Gələn il fevralın sonu, martın əvvəllərində Birinci Türkoloji Qurultayın yüzüncü ildönümünü, heç şübhəsiz, yalnız Azərbaycan yox, bütün Türk dünyası miqyasında ilk növbədə ona görə böyük ruh yüksəkliyi ilə keçirilməsi gözlənilir ki, Qurultay həm türk xalqlarının yeni ictimai, siyasi və mədəni inkişaf yoluna çıxdıqlarını nümayiş etdirmiş, həm də türkologiyanın bir elm olaraq həmin inkişafın önündə getməli olduğunu təsdiq eləmişdir.

**Nizami Cəfərov,**
**akademik**

I Türkoloji Qurultay sırf elmi toplantı olmaqla yanaşı, siyasi mahiyyət də daşıyan hadisə idi. 1926-cı ilin fevralında Bakıda keçirilən Qurultay SSRİ məkanında yaşayan bütün türk xalqları arasında elmi əməkdaşlığın, milli özünüdərkin, həm də mədəni inteqrasiyanın zirvəsi sayılır. Həmin dövrdə Sovet İttifaqının tərkibində olan Krım, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan, Başqırdıstan, Yakutiya, Qaraqalpaq və digər bölgələrdən ziyalıların bir araya gəlməsi, bu şəraitdə milli və elmi məsələləri açıq müzakirə etməsi özü-özlüyündə böyük bir tarixi hadisə idi.

Qurultayın məqsədi çoxşaxəli idi: bir tərəfdən türk xalqları arasında əlifba və yazı sistemi üzərində ortaqlıq yaratmaq, digər tərəfdən isə elmi terminologiyanı birləşdirmək, türk dillərinin sistemli öyrənilməsini təmin etmək idi. Eyni zamanda, Qurultay türk xalqlarının öz köklərinə, dil birliyinə və mənəvi varisliyinə qayıdışının təməl prinsiplərini bərpa edirdi.

**Muxtar Kazımoğlu (İmanov),**
**akademik**

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında İctimai-Siyasi Sənədlər Arxivində Qurultaya dair çox zəngin materiallar saxlanılır. Onların arasında Stalinə göndərilmiş teleqramlar, ÜKP(b) MK-nın gizli qərarları, Təşkilat Komissiyasının protokolları, nümayəndə heyətlərinin siyahıları və Qurultayın stenoqrafik hesabatları yer alır. Bu sənədlərin bir hissəsi "tam məxfi" qrifli idi və oxunduqdan sonra məhv edilməliydi. Lakin tarix bir möcüzə yaratdı – həmin sənədlərin əksəriyyəti arxivdə qorunub qaldı. Məsələn, orada yazılır ki, Qurultayın açılış günü Bakı küçələri bayram ab-havasında idi. Minlərlə insan İsmailiyyə binasının qarşısında toplaşmış, tribunadan "Türk dünyasının sabahı burada yazılır" deyə səslənən çıxışları dinləmişdi. Bu, həm elmi, həm də mənəvi baxımdan misilsiz hadisə idi.

**Nadir Məmmədli,**
**professor**

Sabiq sovetlər birliyinin antitürk ideologiyasına rəğmən, fədakar türkoloqların, milli ziyalıların təşəbbüsü ilə keçirilən Birinci Türkoloji Qurultay (1926) Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa

etdikdən sonra daha geniş elmi araşdırmalar predmetinə çevrildi və bu beynəlxalq ali məclisin ümumtürk mənafeyinə xidmət edən birləşdirici ictimai mahiyyəti, təcrübəvi tarixi əhəmiyyəti elm və dövlət xadimləri tərəfindən yüksək dəyərləndirildi.

**Asif Rüstəmli,**
**professor**

Qurultay komissiyasının qəbul etdiyi prinsiplər türk dillərində vahid yazı sisteminin formalaşmasına və əyalətçiliyin qarşısının alınmasına xidmət etmişdir. Nəticə olaraq, I Türkoloji Qurultayın qərarları və tövsiyələri müasir türk dillərinin standartlaşdırılması və əlifba islahatları üçün hələ də elmi və praktik əhəmiyyət daşıyır.

**Mahirə Hüseynova,**
**professor**

1926-cı ilin fevralında Bakı şəhəri təkcə regional miqyasda deyil, bütövlükdə türk dünyasının elmi və mədəni xəritəsində simvolik bir mərkəzə çevrildi. Birinci Türkoloji Qurultay – elmi ədəbiyyatda “Birinci Türkoloji Qurultay”, “Bakı Türkoloji Qurultayı”, “1926 Bakı Qurultayı” adları ilə də tanınan bu mötəbər tədbir, türk xalqlarının dilləri, mədəni irsi və elmi əməkdaşlıq perspektivləri üzərində düşünən alimləri ilk dəfə bu qədər geniş və sistemli şəkildə bir araya gətirdi. Qeyd edilməlidir ki, Qurultayın rəsmi və orijinal adı Azərbaycan dilində nəşr olunmuş proqramın cildində “Birinci Ümumittifaq Türkoloji Qurultay” kimi göstərilmişdi.

Qurultay çərçivəsində türk dillərinin elmi müzakirəsi yeddi əsas problem sahəsi üzrə aparılmış və bu istiqamətlərdə müvafiq qərarlar qəbul edilmişdi: əlifba məsələsi, imla və orfoqrafiya problemləri, terminologiya, tədris və metodika məsələləri, qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri, türk dillərinin ədəbi dil məsələləri, o cümlədən ortaq ədəbi dil problemi, həmçinin ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi məsələləri.

**Elçin İbrahimov,**
**Qarabağ Universiteti Elm şöbəsinin müdiri,**
**filologiya elmləri doktoru**

Ümumilikdə, I Türkoloji Qurultayın əsas məqsədi ərəb əlifbasının islahı, latın qrafikalı yeni türk əlifbasına keçidilə bağlı elmi əsaslandırılmış qərarların qəbul edilməsi idi və bu baxımdan mühüm platforma rolunu oynadı. Qurultay təkcə hərf inqilabı ilə yadda qalmadı, ortaq türk tarixi, etnoqrafiyası, arxeologiyası, ortaq türk tarixi muzeyinin yaradılması, dilin sadələşdirilməsi barədə intellektual müzakirə və qərarların qəbulu ilə tarixləşdi.

**Akif Aşırlı,**
**“Şərq” qəzetinin baş redaktoru**

I Türkoloji Qurultay, sadəcə, geniş elmi müzakirə və mübadilə hadisəsi deyil, türklüyün elm, dil və mədəniyyət müstəvisində özünü dərk etməsinin təcəssümü, türk xalqlarının gələcək mənəvi birlik yolunu müəyyənləşdirmək cəhdi, mənəvi platforma idi. O dövrün siyasi məhdudiyyətləri və sosial təzyiqlərinə baxmayaraq, Qurultay türk xalqlarının tarixində intellektual azadlığın, elmi əməkdaşlığın və milli birliyin bərqərar olduğu nadir məqam kimi yadda qaldı.

**Namiq Əhmədov,**
**Əməkdar jurnalist**

Birinci Türkoloji Qurultay yalnız elmi məclis deyil, həm də türk xalqlarının ortaq kimliyini və mənəvi birliyini təsdiqləyən hadisə idi. O, türk dünyasının ortaq mədəni istiqamətini müəyyənləşdirdi. Milli oyanış və modernləşmə proseslərinə güclü təkan verdi. Gələn il qurultayın 100 illiyi qeyd olunacaq. Bu yubiley təkcə elmi hadisənin deyil, həm də xalq yaddaşında iz qoymuş, milli birlik ideyasına xidmət etmiş bir mənəvi hərəkatın xatırlanması baxımından mühüm əhəmiyyət daşıyır.

**Namiq Qədimoğlu,**
**Əməkdar jurnalist**

Türkoloji qurultay təkcə dünya türkologiyasının tarixində deyil, Azərbaycan siyasi tarixində mühüm hadisə idi və hətta əminliklə demək olar ki, o dövrdə ən əhəmiyyətli, hadisə idi. Bir əsr əvvəl Bakıda keçirilən bu tarixi qurultay yüz ildir ki, dünyanın humanitar platformasında ən aktual məsələlərdən biri olaraq qalır və getdikcə türk dövlətlərinin siyasi həyatına, türk düşüncəsinin məfkurəvi aspektlərinə sirayət edir. Bakının dünya türkologiyasının deyil, türk düşüncəsinin mərkəzinə çevrilməsinə rəvac verir. Qurultayda müzakirə olunan problemlər sırf elmi məsələlər idi, özündə tarixə, ədəbiyyata, linqvistikaya, etnoqrafiyaya dair ciddi məsələləri ehtiva edirdi. Alt qatda isə gələcəkdə yaradılacaq türk birliyinə yol açırdı ki, biz bu gün həmin tarixi prosesin iştirakçılarıyıq.

**Elnarə Akimova,**
**Milli Məclisin deputatı**

Birinci Türkoloji Qurultay sıradan bir elmi toplantı deyildi. O, türk xalqlarının ortaq mədəni və dil birliyinə doğru atılmış ilk sistemli addım idi. Bu gün Qurultayın 100 illiyinin keçirilməsi artıq siyasi və iqtisadi birlik yolunda olan Türk dünyası üçün əvəzsiz ideoloji təməldir. Müasir dövrdə Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq əlifba və orfoqrafiya məsələsi yenidən strateji məsələ kimi aktuallaşıb. Qazaxıstan və Özbəkistanın latın qrafikasına keçməsi, Türkiyə və Azərbaycanın mövcud təcrübəsi bu prosesin real əsaslarını gücləndirir.

**Fəzail İbrahimli,**
**Milli Məclisin deputatı**

XX əsrin əvvəllərində baş verən ictimai-siyasi dəyişikliklər türk xalqları arasında milli özünüdərkin intensivləşməsinə səbəb oldu. Məhz bu dövrdə ortaq dil, mədəni birlik və tarixi yaddaşın qorunması ideyası intellektual düşüncənin əsas istiqamətlərindən birinə çevrildi. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay bu baxımdan təkcə elmi hadisə deyil, həm də türk xalqlarının milli özünüdərk konsepsiyasının təməl mərhələlərindən biri kimi tarixə düşdü. Qurultayda səslənən ideyalar türk xalqlarının dil birliyinin, mədəni inteqrasiyasının və mənəvi həmrəyliyinin bərpasına yönəldi.

**Sadiq Qurbanov,**
**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri**